Diş texniki

1) Okklüdatorda dişləmin özbaşına qaldırılıb endirilməsi nəyə səbəb olur?

A) Dayaq dişlərin laxlamasına
B) Dayaq dişlərin əyilməsinə
C) Dişləmin hündürlüyünün dəyişməsinə
D) Klammerlərin əyilməsinə
E) Protezin diş ətini zədələməsinə

Ədəbiyyat: Ə.A.Əhmədov. Ortopedik stomatologiya. “Maarif” nəşriyyatı, Bakı, I-II hissə 1992 səh 81

2) Protez üzərində aşağı və yuxarı çənələrdə dişlərin sayı neçədir?

A) Yuxarıda 10, aşağıda 14
B) Hər iki çənədə 14
C) Hər iki çənədə 10
D) Yuxarıda 12, aşağıda 14
E) Yuxarıda 14, aşağıda 12

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководстводлязубныхтехников. «Медицина», Ленинград, 1983 səh 181

3) Kennediyə görə diş cərgəsi qüsurları neçə qrupa bölünür?

A) 4
B) 5
C) 1
D) 3
E) 2

Ədəbiyyat: Е.И.Гаврилов, И.М.Оксман. ОртопедическаяСтоматология. səh 110

4) Vasilyev üsulu ilə (progenik dişləmdə) dişlərin düzülməsində üst çənə modelinə qoyulmuş I böyük azı şüşəyə hansı tərəfilə toxunur?

A) İki ön qabarı ilə
B) Yanaq qabarları ilə
C) Arxa yanaq qabarı ilə
D) Bütün qabarları ilə

E) Ön damaq qabarı ilə

Ədəbiyyat: В.Н.Копейкин, И.М.Оксман. Зубопротезнаятехника. «Медицина», Москва, 1985 səh 326

5) Birçiyinli klammerin qoyulması zamanı təbii dişə qoyulan tələb hansıdır?

A) Diş cərgələri
B) Dişin tacı
C) Dişin ekvatoru
D) Dişin hündürlüyü
E) Dişin antaqonistə münasibəti

Ədəbiyyat: Ə.A.Əhmədov. Ortopedik stomatologiya. "Maarif" nəşriyyatı, Bakı, I-II hissə 1992 səh 105

6) Klammerlər materialına görə neçə yerə bölünür?

A) 4
B) 8
C) 6
D) 3
E) 5

Ədəbiyyat: Е.И.Гаврилов, И.М.Оксман. ОртопедическаяСтоматология. səh 161-162

7) Modellərin hansı növləri var?

A) İşçi, köməkçi, muzey
B) İşçi, köməkçi, diaqnostik
C) İşçi, köməkçi, muzey, plastik
D) İşçi, köməkçi, diaqnostik, muzey
E) Funksional, anatomik

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководстводлязубныхтехников. «Медицина», Ленинград, 1983 səh 49

8) Fərdi qaşıq hazırlanmasının neçə laborator mərhələsi var?

A) 3
B) 4
C) 5

D) 6
E) 2

Ədəbiyyat: Е.И.Гаврилов, И.М.Оксман. ОртопедическаяСтоматология. səh 266

9) Birçiyinli qarmaqlar hansı hissədən ibarətdir?

A) Cisim, çıxıntı
B) İki okklüzion pəncə, cisim
C) Çiyin, cisim, çıxıntı
D) Çıxıntı, iki okklüzion pəncə
E) Çiyin ,çıxıntı

Ədəbiyyat: Е.И.Гаврилов, И.М.Оксман. ОртопедическаяСтоматология. səh 161

10) Yuxarı çənə üçün fərdi qaşığın kənarı "A" xəttini nə qədər örtür?

A) Yan şöbələri təşkil edir
B) "A" xətti nahiyyəsini təşkil edir
C) "A" xəttini 5 mm keçir
D) "A" xəttini 2 mm keçir
E) Ön dişlər nahiyyəsinin əhatə edir

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983 səh 178

11) Ölçü alma neçə mərhələdə gedir?

A) 2
B) 3
C) 5
D) 4
E) 6

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983 səh 49

12) Ştixel aləti nə məqsədlə istifadə olunur?

A) Protez yatağını yonmaq üçün
B) Protezi yonmaq üçün
C) Protez təmiri zamanı protakrili qarışdırmaq üçün
D) Protezin süni dişlərinin aralarını işləmək üçün

E) Protezi pardaxlamaq üçün

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезная техника. «Медицина», Москва, 1985 səh 229

13) Taxmalar hansı üsulla hazırlanır?

A) Düz və tərs üsulla
B) Ştamplanma üsulu ilə
C) Düz və dolayı üsulla
D) Düz üsulla
E) Dolayı üsulla

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 131-132

14) Sonuncu modelləşdirilən səth hansıdır?

A) Vestibulyar səth
B) Dil səthi
C) Yan səth
D) Damaq səthi
E) Oral səth

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 60-61

15) Modelləşdirməyə aid olmayan şərt hansıdır?

A) Modelləşdirmə bərkimiş mumla aparılır
B) Kimyəvi karandaşla klinik boynun çəkilməsindən sonra modelləşdirmə aparılır
C) Modelləşdirmədə çeynəmə qabarları kəskin nəzərə çarpmamalıdır
D) Yan səthlər sonuncu modelləşdirilir
E) Antaqonistə uyğun modelləşdirilməlidir

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 61

16) Çərçivə əsasında gips ştamplar arasındakı məsafə nə qədərdir?

A) 5 sm
B) 4 sm
C) 3 sm

D) 2 sm
E) 1 sm

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 64

17) Körpüvari protez hansı hissələrdən ibarətdir?

A) Mərkəzi və aralıq hissədən
B) Dayaq elementlərdən və aralıq hissədən
C) Dayaq dişlərdən və taxmalardan
D) Aralıq hissədən və qapaqlardan
E) Ştiftli dişlərdən və aralıq hissədən

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

18) Asma protezi qapaqdan fərqləndirən xüsusiyyət hansıdır?

A) Asma konstruksiya ortodontik aparatı fiksasiya etmək üçün hazırlanır,qapaq isə bir diş protezidir
B) Asma konstruksiya çıxan protezlərə aiddir
C) Asma - diş cərgəsi, qapaq - bir diş protezidir
D) Asma konstruksiya kimyəvi işlənmir
E) Qapaq - diş cərgəsi, asma - bir diş protezidir

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 57 В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезная техника. «Медицина», Москва, 1985, səh 130

19) Körpüvari protezlə hissəvi protezin eyni xüsusiyyəti hansıdır?

A) Hər iki protezin tətbiqində dad hissiyatı itmir
B) Hər ikisi istənilən materialdan hazırlana bilər
C) Hər ikisinin polimerləşdirilməsində etakrildən istifadə olunur
D) Hər ikisi sementlə fiksasiya olunur
E) Hər ikisində dayaq elementin sağlam paroadontunun olması vacibdir

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 237

20) Yəhərəbənzər formadan nə vaxt istifadə edilir?

A) Gigiyenik olduğuna görə
B) Çeynəmə dişlərinin tacı qısa olduqda
C) Estetik keyfiyyəti artırmaq üçün
D) Frontal dişlərdə
E) Təzyiqi düzgün paylaşdırmaq üçün

Ədəbiyyat: Ə.A.Əhmədov. Ortopedik stomatologiya. "Maarif" nəşriyyatı, Bakı, I hissə 1992, səh 177

21) Körpüvari protezlərdə dayaq elementi olaraq nədən istifadə olunur?

A) Yalnız mərkəzi dişlərdən
B) Yalnız azı dişləri
C) Bütün dişlərdən və köklərdən
D) Yalnız böyük azı dişlərdən
E) Müalicədən sonra bütün kariesli dişlər

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 171-176

22) Körpüvari protezin aralıq hissəsini modelləşdirərkən (dişlərin oral səthini) nəyə fikir vermək lazımdır?

A) Sərhəd qoyulur
B) İstənilən formada modelləşdirilə bilər
C) Dişin anatomik formasını tam, dəqiq bərpa edirlər
D) Sərhəd qoyulmur
E) Bir dişdən o biri dişə hamar keçid olmalıdır

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 171-172

23) Hansı protez qeyri-gigiyenikdir və selikli qişaya yatır?

A) Toxunan və yəhərvari
B) Yəhərəbənzər və yuyulan
C) Toxunan və yuyulan
D) Yəhərəbənzər
E) Toxunan

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

24) Yuyulan formanın toxunan formadan fərqi nədir?

A) Yuyulan forma qeyri-gigiyenik, toxunan forma gigiyenikdir
B) Yuyulan forma selikli qişaya yatmır, toxunan forma yatır
C) Yuyulan forma azı, toxunan forma isə frontal dişlərə hazırlanır
D) Yuyulan forma frontal, toxunan forma çeynəmə dişlərinə hazırlanır
E) Yuyulan forma selikli qişaya tam yatır, toxunan forma yatmır

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

25) Aşağıdakılardan hansı laborator mərhələdir?

A) Polimerləşdirmə
B) Mərkəzi okklüziyanın təyini
C) Dişlərin yonulması
D) Qapağın yoxlanması
E) Ölçünün alınması

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезная техника. «Медицина», Москва, 1985, səh 149

26) Aşağıakılardan hansılar model növləridir?

A) Ortoqnatik, biproqnatik, diaqnostik
B) Diaqnostik, işçi, köməkçi
C) Anatomik, funksional, diaqnostik
D) İlkin, işçi, yekun
E) Plastmas, metal və kombinəedilmiş

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 49-50

27) Modelləşdirməyə aid olmayan şərt hansıdır?

A) Modelləşdirilən dişlə qonşu dişlər arasında qapağın qalınlığı qədər məsafə qalmalıdır
B) Sonuncu dil-damaq səthi modelləşdirilir
C) Diş qabarları kəskin nəzərə çarpmamalıdır
D) Antaqonistə uyğun olmalıdır
E) Bir səthdən digərinə keçid hamar olmalıdır

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 61

28) Hansı qapaqlardan müvəqqəti protez kimi də istifadə olunur?

A) Çini qapaqlar dan
B) Ekvator qapaqlardan
C) Metal qapaqlardan
D) Ştamplanmış qapaqlardan
E) Plastmas qapaqlardan

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 149-151

29) Körpüvari protezi asmadan fərqləndirən xüsusiyyət hansıdır?

A) Körpüvari protez nitqə mənfi təsir etmir
B) Asma protez nitqə mənfi təsir etmir
C) Asma protezdə iki dayaq qapağı hazırlanır
D) Körpüvari protez-diş cərgəsi, asma-bir diş protezidir
E) Asma protezdə birtərəfli, körpüvari protezdə isə ikitərəfli fiksasiya elementi var

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 167

30) Yuyulan formaya aid olan əlamətlər hansıdır?

A) Çeynəmə dişlərinə tətbiq edilir
B) Frontal və kiçik azı dişlərinə tətbiq olunur
C) Frontal və çeynəmə dişlərinə tətbiq olunur
D) Qeyri-gigiyenikdir
E) Selikli qişaya ön tərəfi ilə yatır

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

31) İlkin olaraq dişin hansı səthi modelləşdirilir?

A) Oral səthi
B) Damaq səthi
C) Çeynəmə səthi
D) Yan səth
E) Vestibulyar səth

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководстводлязубныхтехников. «Медицина», Ленинград, 1983 , səh 60-61 В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезная техника. «Медицина», Москва, 1985, səh 137-138

32) Aralıq hissənin oral səthini maili modelləşdirmək nə üçün lazımdır?

A) Dilin selikli qişasını zədələməmək üçün
B) Protezin möhkəmliyi üçün
C) Estetik görünüş üçün
D) Aralıq hissənin möhkəmliyi üçün
E) Protezin yaxşı fiksasiyası üçün

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 171-172

33) Yuyulan formaya aid olan xüsusiyyət hansıdır?

A) Dayaq dişlərə zəif fiksasiya edilir
B) Selikli qişaya tam yatır
C) Gigiyenikdir, selikli qişaya yatmır
D) Qeyri-gigiyenikdir
E) Selikli qişaya qismən yatır

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

34) Yəhərəbənzər forma hansı halda düzgün hazırlanmış hesab edilə bilər?

A) Alveola baxan tərəfi geniş olmalıdır
B) Alveola tam yatmalıdır
C) Alveola baxan tərəf maili hamar olmalıdır
D) Ön tərəfi ilə alveola yatmalıdır
E) Gigiyenikdir, selikli qişaya yatmır

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководстводлязубныхтехников. «Медицина», Ленинград, 1983, səh 89

35) Selikli qişaya “yatan” forma necə adlanır?

A) Belə forma yoxdur
B) Toxunan
C) Yuyulan
D) Asma

E) Yəhərəbənzər

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

36) Çıxan körpüvari protez hazırlanmasına görə neçə yerə bölünür?

A) 4
B) 5
C) 6
D) 3
E) 2

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезная техника. «Медицина», Москва, 1985, səh 180-183

37) Konsol protezlərdə neçə dayaq elementi var?

A) 2
B) 5
C) 1
D) 4
E) 3

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

38) Yuyulan formanın mənfi cəhəti nədir?

A) Estetik deyil
B) Dayaq dişlərlə lehim sahəsi kiçik olduğundan, qirilma ehtimalı yüksəkdir
C) İltihaba səbəb olur
D) Dişləmi qaldırır
E) Qeyri-gigiyenikdir

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

39) Hansı xassə yuyulan formaya aid deyil?

A) Selikli qişaya yatmır
B) Çeynəmə dişlərinə hazırlanır, gigiyenikdir
C) Gigiyenikdir

D) Ön dişlərə hazırlanır
E) Selikli qişanın iltihabına səbəb olmur

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

40) İlkin ştamplama zamanı gilizin üzərində qatların əmələ gəlməsinin qarşısını almaq üçün çəkicin zərbələri hara yönəldilməlidir?

A) Ekvatordan çeynəmə səthinə doğru
B) Vestibulyar səthdən aproksimal səthə doğru
C) Ətəyindən gövdəsi boyu
D) Aproksimal səthdən oral səthə doğru
E) Çeynəmə səthdən ekvatora doğru

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезная техника. «Медицина», Москва, 1985, səh 142-145

41) Modelləşdirmədə ilk modelləşdirilən səth necə adlanır?

A) Oral
B) Kəsici
C) Vestibulyar
D) Yan
E) Çeynəmə

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководстводлязубныхтехников. «Медицина», Ленинград, 1983, səh 61

42) Hansı variant yuyulan formaya aid deyil?

A) Ağız boşluğuna baxan səthi hamar olmalıdır
B) Gigiyenikdir
C) Selikli qişanın iltihabına səbəb olur
D) Çənə sümüyünün atrofiyası zamanı istifadə edilir
E) Ön dişlərə hazırlanması əks göstərişdir

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 57

43) Sadə Akker klammerin elementləri hansılardır?

A) Ardıkəsilməz çiyin birləşməsi, cisim, çıxıntı

B) İki çiyin , okklüzion pəncə, cisim, çıxıntı
C) T-şəkilli çiyin, okklüzion pəncə, çıxıntı
D) Bir çiyin, okklüzion pəncə, cisim, çıxıntı
E) İkili çiyin, okklüzion pəncə, cisim

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководство для зубных техника» səh 153

44) V tipli Ney qarmaqlarının xarakteristikasına hansılar aiddir?

A) Rouç qarmağı- hüdudlanan qüsurda istifadə olunur
B) Əks təsir, hüdudlanmayan qüsur
C) Əks təsir, hüdüdlanan qüsur
D) Əks təsir, hüdudlanan və hüdudlanmayan qüsur
E) Dairəvi – tək qalmış böyük azıların əyilməsində

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководство для зубных техника» səh 156

45) Aşağıdakı göstərilən sıralardan hansı Ney sistemi qarmaqlarına aiddir?

A) Sadə Akker, T-şəkilli armaq, kombinəedilmiş qarmaq, üzükvari qarmaq, əks istiqamətdə təsir göstərən qarmaq
B) Çoxşaxəli qarmaq, A-tipik qarmaq, Rouç qarmağı, Bonivel qarmağı, Svenson qarmağı
C) Sadə Akker , T-şəkilli qarmaq, Svenson qarmağı, kombinəedilmiş qarmaq
D) Sadə akker qarmağı, T-şəkilli Rouç qarmağı, kombinəedilmiş qarmaq, əks istiqamətdə təsir göstərən qarmaq, dairəvi qarmaq
E) Sadə Akker qarmağı, birçiyinli qarmaq, T-şəkilli qarmaq, kombiunəedilmiş qarmaq

Ədəbiyyat: Е.И.Гаврилов, А.С.Щербаков. Ортопедическая стоматология. «Медицина», Москва, 1984 səh 217

46) T-şəkilli çiyni olan qarmaqlar hansılardır?

A) Rouç və Bonixart qarmağı
B) Kombinəedilmiş və sadə akker qarmağı
C) Dairəvi qarmaq
D) Reyxelman və aşırma-Cekson qarmağı
E) Sadə Akker qarmağı

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководство для зубных техника» səh 156-158

47) Sadə Akker klammerin çiyni diş səthinin neçə hissəsini tutur?

A) 2/5
B) 2/4
C) 3/4
D) 1/4
E) 1/5

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарев. «Руководство для зубных техника» səh 153

48) Hansı qarmaq üçün dayaq diş mütləq qapaq ilə örtülməlidir?

A) Djekson
B) Rouç
C) Akker
D) Reyxelman
E) Bonivel

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководстводнязубныхтехника» səh 158

49) Dairəvi qarmağın neçə okklüzion pəncəsi var?

A) 2
B) 4
C) 5
D) 3
E) 1

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководстводнязубныхтехника» səh156

50) Karkasın konstruksiyası hansı tökmə üsulunda daha dəqiq tökülür?

A) Həm modelsiz, həm model üstündə
B) Model üstündə
C) Metal hissələri töküb, sonra lehimləyəndə
D) Ancaq qiymətli metal istifadə olunanda
E) Modelsiz

Ədəbiyyat: В.Н.Копейкин, Е.С.Кнубовец. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 313

51) İlk dəfə blokvari birləşmələr kim tərəfindən təklif olunmuşdur?

A) Delobar
B) Humor
C) Purman
D) Fortunati
E) Rumpel

Ədəbiyyat: Н.Г.Аболмасов. Н.Н. Аболмасов. «Ортопедическая Стоматология». Москва. Медпресс- информ.2007. səh 293

52) Rouç qarmağın okklüzion pəncəsi qarmağın hansı hissələri ilə birləşir?

A) Cisim
B) Yəhər
C) Cisim və çiyin
D) Qövs
E) Cisim və çıxıntı

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководство для зубных техника» səh 154

53) Kombinəedilmiş qarmağın əsas hissələri hansıdır?

A) 2 dənə çiyin, cisim
B) 1 çiyin, okklüzion pəncə, çıxıntı
C) 2 dənə çiyin, okklüzion pəncə
D) 2 dənə T-şəkilli çiyin, okklüzion pəncə, çıxıntı
E) 2 çiyin –biri T-şəkilli , o birisi Sadə Akker qarmağın çiyni, okklüzion pəncə, cisim

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководство для зубных техника» səh 155

54) Nöqtəvi fiksasiyada neçə dənə qarmaq işlənir?

A) 5
B) 3
C) 2
D) 1
E) 4

Ədəbiyyat: Е.И.Гаврилов, И.М.Альшиц «Ортопедическая Стоматология».səh 214

55) Xətti fiksasiyada neçə dənə qarmaq istifadə olunur?

A) 2
B) 3
C) 5
D) 1
E) 4

Ədəbiyyat: Е.И.Гаврилов, И.М.Альшиц «Ортопедическая Стоматология» səh 214

56) Sadə Akker qarmağının çiyni dişin səthinin neçə hissəsini tutur?

A) 1/3
B) 1/4
C) 2/4
D) 2/3
E) 3/4

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководство для зубных техника» səh 153

57) Düymə şəklində olan attaçmenlər necə adlanır?

A) Şarnir
B) Hibrid
C) Adı yoxdur
D) Ceka
E) Anker

Ədəbiyyat: Современные технологии протезирования. ХэннингВульфес. Akademia dental. İnternational School BEGO Germany. 2006 səh 176

58) Teleskopik qarmağın daxili qapağı dişəti cibinə neçə mm daxil edilir?

A) 0,3 mm
B) 0,2 mm
C) 0,7 mm
D) 0,5 mm

E) 0,9 mm

Ədəbiyyat: Н.Г.Аболмасов. Н.Н. Аболмасов. «Ортопедическая Стоматология». Москва. Медпресс- информ.2007 səh 158

59) Karkas hansı hissələrdən ibarətdir?

A) Metaldan
B) Yəhərdən
C) Qövsdən , yəhərdən, qarmaqdan
D) Qarmaqdan
E) Qövsdən

Ədəbiyyat: В.Н.Копейкин, Е.С.Кнубовец. Зубопротезная техника. «Медицина», Москва, 1985, səh 285

60) Karkasin son işlənməsində hansı materiallardan istifadə olunur?

A) Turşu
B) QOİ pastası
C) Gips
D) Abrazivlər
E) Karborund daş

Ədəbiyyat: Современныетехнологиипротезирования. ХэннингВульфес. Akademia dental. İnternational School BEGO Germany. 2006. səh 113

61) Kombinəedilmiş qarmağın uzun çıxıntısı protezin hansı hissəsinə yönəlir?

A) Dişin ekvatoruna
B) Yəhər
C) Plastmas
D) Qövs
E) Süni dişlər

Ədəbiyyat: В.С.Погодин, Б.А.Пономарев. «Руководстводлязубныхтехника» səh156

62) Akker attaçmen çıxan protez üçün hansı elementdir?

A) Dayaq tutucu
B) Yalnız tutucu
C) Təzyiq göstərən

D) Estetik
E) Yalnız dayaq

Ədəbiyyat: Современные технологии протезирования.Хэннинг Вульфес. Akademia dental.İnternational School BEGO Germany. 2006. səh 238

63) Matrisa hansı alətin köməyi ilə karkasın içinə qoyulur?

A) Xüsusi açarın köməyi ilə
B) Əl ilə
C) Xüsusi maqqaş ilə
D) Paralel tutucu
E) Xüsusi qarmaq ilə

Ədəbiyyat: Современныетехнологиипротезирования.ХэннингВульфес. Akademia dental.İnternational School BEGO Germany. 2006. səh 238

64) Elektroliz üsulu ilə cilalanma zamanı qarmaqlarla hansı iş görülməlidir?

A) Pambıqla örtülür
B) Açıq qalır
C) Qoruyucu lak ilə qarmaq səthi örtülür
D) Elektroliz aparılan qaba qoyulmur
E) İzokolu qarmaqların səthinə çəkilir

Ədəbiyyat: Современные технологии протезирования.Хэннинг Вульфес. Akademia dental.İnternational School BEGO Germany. 2006. səh 128

65) Qövsün qeyri hamar səthi nə zaman pardaxlanmalıdır?

A) Elektrolit üsulu ilə pardaxlandıqdan sonra
B) Elektrolit üsulu ilə ilə pardaxlanmamışdan qabaq
C) Qeyri hamar səthi yüksək temperatur altında pardaxlamaq lazımdır
D) Qövsün bu səthi pardaxlanmamalıdır
E) Qeyri-hamar səthi yalnız qumvuran aparat ilə pardaxlanır

Ədəbiyyat: Современные технологии протезирования.Хэннинг Вульфес. Akademia dental.İnternational School BEGO Germany. 2006. səh 110

66) Qatlanan protezlər hansı hissələrdən ibarətdir?

A) Bir mərkəzi və iki yan
B) Birləşdirici və mərkəzi

C) İki yan və orta birləşdirici
D) Məftil lövhə və iki qarmaq
E) Məftil lövhə və birləşdirici

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985 səh 386

67) Qatlanan protezin yan hissəsi bir-biri ilə necə birləşir?

A) Qarmaqla
B) Yivlə
C) Attaçmenlə
D) Ştiftlə
E) Şarnirlə

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985 səh 386

68) Mum kompozisiyası hazırlanacaq protezin tam anatomik formasının neçə hissəsini təşkil etməlidir?

A) 2/3 hissəsini
B) 1/4 hissəsini
C) 1/3 hissəsini
D) 1/2 hissəsini
E) 2/4 hissəsini

Ədəbiyyat: МакотоЯмамото. Базисная техника изготовления металлокерамических зубных протезов. Москва. 1998 səh 11

69) Wax-ap nədir?

A) İşlənəcək protezin son nəticəsinin əvvəlcədən mumla modelləşdirilməsi
B) Keramik sobada bişirilmək üçün kütlə
C) Metaldan almaq üçün mumla modelləşdirmə
D) Keramik kütlə
E) Plastmasın bir növü

Ədəbiyyat: Совроменные технологии протезирования. ХэннингВульфес. Akademia dental.İnternational School BEGO Germany, səh 158.

70) Set-ap nədir?

A) Metaldan almaq üçün plastmasla modelləşdirmə
B) Hazır protezin son nəticəsinin əvvəlcədən süni dişlər vasitəsilə düzülməsi
C) Keramik kütlə ilə modelləşdirmə
D) Son nəticənin mumla modelləşdirilməsi
E) Metaldan almaq üçün mumla modelləşdirmə

Ədəbiyyat: Совроменные технологии протезирования. ХэннингВульфес. Akademia dental.İnternational School BEGO Germany, səh 158.

71) Kombinəedilmiş protezlərdə müxtəlif tərkibli ərintilərdən istifadə etmək məqsədəuyğundurmu?

A) Məqsədəuyğun deyil
B) Məqsədəuyğundur
C) Belə protezlər mövcud deyil
D) Ancaq qiymətli ərintilərdən istifadə olunur
E) Ərintidən istifadə olunmur

Ədəbiyyat: Совроменныетехнологиипротезирования. ХэннингВульфес. Akademia dental.İnternational School BEGO Germany, səh 162

72) Sirkon oksidindən hazırlanmış protezlərlə frontal dişləri bərpa etmək olarmı?

A) Olar, ancaq özünü doğrultmur
B) Bərpa etmək olar
C) Bərpa etmək olmaz
D) Sirkon oksidi ortopedik stomatologiyada istifadə olunmur.
E) Estetik cəhətdən özünü döğrultmur

Ədəbiyyat: ДоменикоМассирони: « Точностьиэстетика ». Москва 2008. səh 342

73) Sirkon oksidindən hazırlanmış protezlərlə çeynəmə dişlərini bərpa etmək olurmu?

A) Bərpa etmək olur
B) Xeyr
C) Olar, ancaq özünü doğrultmur
D) Olar, ancaq estetik cəhətdən özünü doğrultmur
E) Sirkon oksidi ortopedik stomatologiyada istifafə olunmur.

Ədəbiyyat: Доменико Массирони: « Точность и эстетика ». Москва 2008. səh 34

74) Frontal dişlər nahiyyəsində aralıq hissənin hansı forması tətbiq edilir?

A) Yuyulan, yəhərəbənzər
B) Yuyulan və toxunan
C) Yəhərəbənzər
D) Toxunan
E) Yuyulan

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

75) Güdüllü qapağı ştiftli dişdən fərqləndirən xüsusiyyət hansıdır?

A) Kök kanalına ştift vasitəsilə bərkidilir
B) Diş tacını bərpa edir
C) Çıxan protezə bərkidilir
D) Çoxköklü dişlərə də hazırlamaq olar
E) Çıxmayan protezə aiddir

Ədəbiyyat: Z.İ.Qarayev "Ortopedik Stomatologiya". Bakı, 2008, səh 107-108

76) Dişin çeynəmə qabarlarını modelləşdirərkən nəyə görə onları hündür etmirlər?

A) Dayaq dişi laxlatmasın
B) Çeynəmə prosesində iştirak etməsin
C) Dişləmi qaldırmasın
D) Diş cərgəsində görünməsin
E) Estetikanı pozmasın

Ədəbiyyat: Ə.A.Əhmədov. Ortopedik stomatologiya. "Maarif" nəşriyyatı, Bakı, I-II hissə 1992, səh 112

77) Düzgün hazırlanmış süni qapağın uzunluğu haraya qədər olmalıdır?

A) Damaq səthinə qədər çatmalıdır
B) Diş əti cibinə 0,2 mm daxil olmalıdır
C) Diş əti cibinə 1,0 mm daxil olmalıdır
D) Damaq səthi ilə eyni səviyyədə olmalıdır
E) Dişin ekvatoruna qədər olmalıdır

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 141

78) Tacın tamlığının pozulmasında ştiftli dişlər nə zaman hazırlanmır?

A) Köpək dişlərə
B) Yuxarı çənənin mərkəzi dişlərə
C) Kiçik azı dişlərə
D) Yalnız aşağı çənənin dişlərinə
E) Aşağı mərkəzi və yan kəsici dişlərə

Ədəbiyyat: Ə.A.Əhmədov. Ortopedik stomatologiya. "Maarif" nəşriyyatı, Bakı, I-II hissə 1992, səh 149

79) Aşağıda adları çəkilənlərdən hansı tökmə yolu ilə hazırlanmış güdüllü ştiftli taxmaların ştiftli dişlərdən üstünlüklərinə aid deyil?

A) İlkin konstruksiya söküldükdə yenidən istifadəsi mümkündür
B) Tam tökmə olduğundan onlar möhkəmdir və köklərin kanallarında daha yaxşı fiksasiya olunurlar
C) Onları kökün divarları çox dağıldıqda hazırlamaq mümkün deyil
D) Patoloji sürtülmə zamanı diş taclarının hündürlüyünü onlarla bərpa etmək olar
E) Onları ön və yan dişlər qruplarının köklərinə fiksasiya etmək olar

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 79,80,86

80) Yarımqapaq dişin hansı səthlərini örtür?

A) Oral, aproksimal, çeynəmə
B) Vestibulyar, medial, oral
C) Çeynəmə, aproksimal
D) Vestibulyar, çeynəmə
E) Oral, aproksimal, vestibulyar

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 70

81) Taxmalar nəyə deyilir?

A) Diş cərgəsinə taxılan protezə
B) Ştift vasitəsilə bərkidilən konstruksiyaya
C) Laboratoriyada hazırlanmış kütləyə
D) Hissəvi dağılmış diş tacını bərpa edən mikroprotezə
E) Diş kökünə yerləşdirilən yad cismə

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 57-59

82) Aralıq hissə nədən hazırlanır?

A) Qapaqlardan
B) Ştiftlərdən
C) Güdüllərdən
D) Süni dişlər blokundan
E) Plastmasdan

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

83) Diş cərgəsi üçün hazırlanan çıxmayan protezlər hansılardır?

A) Ştiftli dişlər, plastik kütlədən körpüvari protez
B) Ştiftli dişlər, çini qapaqlar, konsol protezlər
C) Taxma, ştiftli diş, plastik kütlədən körpüvari protez
D) Asma, kombinəedilmiş körpüvari protez, lehimsiz körpüvari protez
E) Tökmə qapaq, taxma, tökmə körpüvari protez

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезная техника. «Медицина», Москва, 1985, səh 130

84) Hansı sıradakı əsas materiallar çıxmayan protez hazırlanmasında tətbiq olunur?

A) Ftoraks, etakril
B) Gips, lehim, etakril
C) Protakril, giliz, izokol
D) Gips, protakril, mum
E) Sinma-74, metal xəlitələr

Ədəbiyyat: А.И.Дойников, В.Д.Синицын. Зуботехническоематериаловедение. «Медицина», Москва, 1986, səh 82-87

85) Çıxmayan protezin neçə növü var?

A) 6
B) 7
C) 5
D) 3

E) 2

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 57

86) Kiçik azı dişlərinə hazırlanan yarımqapaqlara nə deyilir?

A) ½ qapaqlar
B) ¾ qapaqlar
C) Taxmalar
D) Teleskopik qapaqlar
E) Ekvator qapaqlar

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 134

87) Ə.A.Əhmədov tərəfindən təklif olunmuş ştiftli diş hansı konstruksiyaya aiddir?

A) Kombinəedilmiş və qarışıq
B) Kombinəedilmiş
C) Sadə
D) Qarışıq
E) Mürəkkəb

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 79-81

88) Hansı variant çıxmayan protez hazırlanmasının klinik mərhələsinə aiddir?

A) Dişləm hündürlüyünün təyini
B) Cilalama
C) Modelin tökülməsi
D) Ştamplama
E) Pardaxlama

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 137

89) Süni qapağa aid olan tələblər hansılardır?

A) Qapaqlar diş cərgələrinin qapanmasına mane olmamalıdır
B) Diş əti cibinə 0,3 mm-dən çox keçməlidir

C) Diş tacının formasını tam əks etdirməməlidir
D) Qonşu dişlərlə intaktlığı bərpa etməməlidir
E) Diş əti cibinə keçməməlidir

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 136

90) Ştamplamanın əsas məqsədi nədir?

A) Gilizin formasını dişin anatomik formasına yaxınlaşdırmaq
B) Gilizi genişləndirmək
C) Gilizin keyfiyyətini artırmaq
D) Gips sütünundan metal sütünu hazırlamaq
E) Gilizi parıldatmaq

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 137

91) Diş tacını tam əhatə edən qapaq necə adlanır?

A) Ekvator qapaq
B) Ştamplanmış və ya tökmə qapaq
C) Yarımqapaq
D) Taxma
E) Güdüllü qapaq

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 130-132

92) Qapaq tam hazır olana qədər neçə dəfə ştamplanır?

A) 5
B) 6
C) 2
D) 3
E) 4

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 145

93) Bərpaedici qapaqlar hansı qapaqlardır?

A) Körpüvari protezləri bərpa edən qapaqlar

B) Konsol protez üçün istifadə olunan qapaqdır
C) Daimi qapağa qədər qoyulan bərpaedici qapaqdır
D) Dağılmış diş tacını bərpa etmək üçün qapaqdır
E) Dayaq məqsədi ilə hazırlanan bütün qapaqlardır

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 60

94) Körpüvari protez hazırlanmasının laborator mərhələsinə aid olanı hansıdır?

A) Dayaq dişlərin yonulması
B) Mərkəzi okklüziyanın təyini
C) Ölçünün alınması
D) Aralıq hissənin modelləşdirilməsi
E) Dişləm hündürlüyünün təyini

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезная техника. «Медицина», Москва, 1985, səh 137

95) Körpüvari protez nəyə deyilir?

A) İki və daha çox dayağı olan çıxmayan protezə
B) Bir və ya bir neçə dayaq elementi və aralıq hissəsi olan çıxmayan protezə
C) Konsol protezlərə
D) Dişin anatomik formasını bərpa edən çıxmayan protezə
E) Ştift vasitəsilə bərkidilən protezə

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

96) Şpatellə boyun açıldıqdan sonra texnik kimyəvi qələmlə hansı elementi çəkir?

A) Gələcək qapağın uzunluğunu
B) Klinik boynu
C) Anatomik boynu
D) Fizioloji boynu
E) Anatomik və klinik boyunları

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 142-143

97) Aşağıdakılardan hansı patologı sürtülmə zamanı istifadə olunur?

A) Metal qapaqlardan
B) Ştiftli dişlərdən
C) Plastmas qapaqlardan
D) Yarım qapaqdan
E) Taxmalardan

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководствоплязубныхтехников. «Медицина», Ленинград, 1983, səh 57-59

98) Ştamplamanın ilkin mərhələsində dişin ekvatorla boynunun arasına nəyə görə çəkic zərbəsi vurmaq olmaz?

A) Qapaq əzilə bilər
B) Qapaqda qırışlar əmələ gələr
C) Ştamplamadan sonra qapağın çıxarılması asanlaşsın
D) Qapaq deşilə bilər
E) Metal sütunu qırıla bilər

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 142-145

99) Belkinə görə kombinəedilmiş qapaq küvetə necə gipslənir?

A) Üfiqi, mum hissəsi aşağı
B) Çəpinə
C) Şaquli
D) Üfiqi, mum hissəsi yuxarı
E) Şaquli, mum hissəsi aşağı

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководствоплязубныхтехников. «Медицина», Ленинград, 1983, səh 75

100) Ştiftli dişlərə aid olan əks göstərişlər hansıdır?

A) Tacın dağılması
B) Çox köklü olması
C) Kökün periodonta qədər ploblanması
D) Kökün əyriliyi
E) Tək köklü dişlər

Ədəbiyyat: В.Н.Копейкин, Л.М.Демнер. Зубопротезнаятехника. «Медицина», Москва, 1985, səh 156

101) Toxunan forma nə zaman düzgün hesab edilir?

A) Alveola baxan tərəfi geniş olduqda
B) Alveola arxa tərəfi ilə yatdıqda
C) Alveola baxan tərəfi maili hamar olduqda
D) Alveola tam yatdıqda
E) Alveola ön tərəfi ilə yatdıqda

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

102) Tam tökmə körpüvari protezlərin hazırlanması üçün nədən model hazırlanır?

A) Gipsdən, super gipsdən və çıxan dayaq dişlərdən
B) Adi tibbi gipsdən
C) Super gipsdən
D) Odadavamlı kütlədən
E) Gipsdən və super gipsdən

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 99-100

103) Teleskopik qapaq nəyə deyilir?

A) Adi yalnız diş əti cibinə girməyən ortopedik qapağa
B) Ortodontik aparata fiksasiya edilən konstruksiyaya
C) Güdüllü taxmaya
D) İki hissədən xarici və daxili qapaqdan ibarət konstruksiyaya
E) Üş hissədən : ştiftdən, xarici və daxili qapaqdan ibarət konstruksiyadan

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 73

104) Tam tökmə körpüvari protezin müsbət xüsusiyyəti aşağıdakılardan hansıdır?

A) Gigiyenikdir
B) Dişlərin patoloji sürtülməsi zamanı tətbiq edilə bilər
C) Sementləmədən sonra dayaq dişindən asan çıxarılır
D) Yalnız plastmasdan üzlüklənə bilər
E) Dişəti cibində iltihab törətmir

Ədəbiyyat: Z.İ.Qarayev ”Ortopedik Stomatologiya”.Bakı-2008. səh 136

105) Aşağıdakılardan hansı yarımqapaqların hazırlanmasına aid deyil?

A) Çıxan körpüvari protezi ağız boşluğunda fiksasiya üçün
B) Şinalayıcı protezin fiksasiyası üçün
C) Körpüvari protezin fiksasiyası üçün
D) Kəsici dişlərin sınmış tinlərinin bərpası üçün
E) Frontal dişlərin patoloji sürtülməsi zamanı

Ədəbiyyat: Ə.A.Əhmədov. Ortopedik stomatologiya. “Maarif” nəşriyyatı, Bakı, I-II hissə 1992, səh 102

106) Hansı variant süni qapağa aid olan tələbdir?

A) Aşağı çənənin okklüzion hərəkətinə mane olmamalıdır
B) Dişin anatomik formasından böyük olmalıdır
C) Dişləmi qaldırmalıdır
D) Diş əti cibinə 5 mm keçməlidir
E) Diş əti cibinə keçməməlidir

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководстводлязубныхтехников. «Медицина», Ленинград, 1983, səh 60

107) Körpüvari protezə aid olan mənfi xüsusiyyət hansıdır?

A) Ağız boşluğunda çox yer tutur
B) Çeynəmə aktını bərpa etmir
C) Dayaq elementlər diş əti cibinə 3 mm keçməlidir
D) Çox gigiyenikdir
E) Təbii dişlər yonulur

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 89

108) Taxma nəyə deyilir?

A) Vestibulyar səthi örtən konstruksiyaya
B) Tökmə yolu ilə hazırlanmış qapağa
C) Diş cərgəsinə hazırlanan çıxmayan protezə
D) Diş formasını bərpa edən çıxmayan protezə
E) Laboratoriya yolu ilə hazırlanmış ştiftə

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 57-60

109) Güdüllü qapaq nəyə deyilir?

A) Bərpaedici qapağa
B) Yarımqapaqlara
C) Taxmalara
D) Fiksəedici qapağa
E) Metal qapağa

Ədəbiyyat: В.С.Погодин, В.А.Пономарева. Руководство для зубных техников. «Медицина», Ленинград, 1983, səh 60

